

# İdmançı şəhidin qəhrəmanlığı

***Sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan ordusunun Azərbaycanla dövlət sərhədində həyata keçirdiyi irimiqyaslı təxribat nəticəsində şücaət göstərib şəhidlik zirvəsinə ucalan qəhrəmanlardan biri XTQ giziri Xəyal Əlövsət oğlu Əhədzadədir.***

1998-ci ildə Lənkəranın Nərimanabad qəsəbəsində dünyaya göz açan bu Vətən sevdalısı yaxşı idmançı kimi də tanınırdı. Lənkəran Şəhər Gənclər və İdman İdarəsinin nəzdində Uşaq Gənclər İdman Məktəbinin yetirməsi olub, 2012-ci il Boks idman növü üzrə məktəblilərin Azərbaycan birinciliyində 40 kiloqram çəki dərəcəsində birinci yeri qazanaraq Respublika çempionu adına layiq görülmüşdü.

Xəyalın birinci amalı doğma Azərbaycana məxsus torpaqlarını canı bahasına belə qorumaq, mübarizliklə yağı düşmən qalib gəlmək olub. Odur ki, Vətən müharibəsində də erməni dığalarına qarşı döyüşlərdə əsl qəhrəman kimi ad qoymuşdur. O, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən "Azərbaycan bayrağı" ordeni , eləcə də Fizulinin, Cəbrayılın, Kəlbəcərin Şuşanın azadlığı uğrunda medalları ilə təltif edilmişdi.

Xəyal Əkbərzadə Vətənini canından artıq sevirdi. Hər an onun yolunda şəhid olmağa hazır indi. Nəhayət 24 yaşında bu istəyinə çatdı. Azərbaycan torpaqlarına göz dikən düşməni məhv etməklə özü də əbədiyyət qazandı. İndi Lənkəranın qəhrəman oğlu cismən aramızdan getsə də, mənən milyonların ürəyində yaşayır. Onun qısa ömrü Vətəninə, torpağına sonsuz sevgi, məhəbbət mücəssəməsinə döndü. Aylar, illər ötsə də Xəyal kimi qəhrəmanlar heç vaxt unudulmaz, onların adları Vətənlə qoşa çəkiləcək.

***Zəfər Orucoğlu, AJB üzvü***

Unikal.- 2022- ci il.- 7 oktyabr.- S. 13.